

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 30 (21.440)

*16 fevral 2016-cı il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiymətı 20 qəpik

*Rəsmi xronika*

Fevralın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Münxen Təhlükəsizlik Konfransı çərçivəsində "İqlim və enerji təhlükəsizliyi. İstiləşmə hələ də davam edirmi?" mövzusunda keçirilən panel-müzakirədə iştirak edib.

Tədbirdə Azərbaycanın birinci xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva da iştirak ediblər.

Panel-müzakirənin aparıcısı Melinda Kreyn tədbirin mövzusunun dünyada iqlim və enerji təhlükəsizliyinə həsr olunduğunu deyib. Daha sonra o, bu tədbirdə Azərbaycan Prezidenti İlham Əliyevin, bir çox mötəbər qonaqların iştirak etdiyini bildirib və sözü dövlətimizin başçısına verib.

Avropa Komissiyasının enerji birliyi üzrə sədr müavini Maroş Şefçoviç, ABŞ Senatının ətraf mühit və ictimai işlər komitəsinin üzvü Şeldon Uaythaus, "Allianze SE" şirkətinin baş icraçı direktoru, Münxen Təhlükəsizlik Konfransının Məşvərət Şurasının üzvü Oliver Bate, "Green Peace International" təşkilatının sabiq icraçı direktoru Kumi Naydoo iqlim dəyişikliyi ilə bağlı ictimai rəyin yaradılması istiqamətində işlərin görülməsinin vacibliyini bildiriblər.

Çıxış edənlər enerji təhlükəsizliyi ilə bağlı fikirlərini bölüşüblər. Sonra müzakirələr aparılıb.




## Eynəli bəy Sultanovun 150 illik yubileyinin keçirilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

2016-cı ildə yazıçı-publisist və pedaqoq Eynəli bəy Sultanovun anadan olmasının 150 illiyi tamam olur.

1866-cı ildə Naxçıvanda anadan olan Eynəli bəy Sultanov ilk təhsilini buradakı qəza məktəbində almış, sonra İrəvan kişi gimnaziyasında oxumuşdur. Qarsda, İrəvanda və Tiflisdə müxtəlif vəzifələrdə çalışmış, "Tiflis Müsəlman Xeyriyyə Cəmiyyəti"ndə və Zaqafqaziya Maliyyə Komissarlığında işləmişdir. Mətbuatla sıx təmasda olmuş, "Kaspi" qəzetinin İrəvan və Naxçıvan üzrə xüsusi müxbiri, "Kavkazskaya kommuna" qəzetinin redaktoru, "İşıq yolu" qəzetinin məsul katibi işləmişdir.

Ölkəmizdə maarifçiliyin inkişafında əvəzsiz xidmətləri olan Eynəli bəy Sultanov Naxçıvanda ilk kitabxana və mətbəəni, 1882-1883-cü illərdə "Ziyalı məclisi" və "Müsəlman dram incəsənəti cəmiyyəti" ədəbi-mədəni mərkəzlərini yaratmış, qabaqcıl fikirli gəncləri öz ətrafına toplayaraq 1883-cü ildə Naxçıvan teatrının yaranmasında yaxından iştirak etmişdir.

Eynəli bəy Sultanov pedaqoji fəaliyyətlə də məşğul olmuş, Tiflisdə müəllim işləmişdir. O, Azərbaycanda latın qrafikalı əlifbaya keçmək uğrunda təşəbbüslər etmiş, 1924-cü ildə Yeni Əlifba Komitəsi Tiflis şöbəsinin katibi kimi səmərəli fəaliyyət göstərmişdir.

Publisistika sahəsində səmərəli fəaliyyət göstərən Eynəli bəy Sultanov bədii yaradıcılıqla da məşğul olmuş, ictimai fikrə və maarifçi mühitə təsir göstərən hekayə və dram əsərləri, şeirlər yazmış, tərcümələr etmişdir. O, ilk dəfə olaraq Naxçıvanda şifahi xalq ədəbiyyatı nümunələrini toplamış, xalqımızın milli dəyərlərinin tədqiqatçısı və təbliğatçısı olmuşdur.

Eynəli bəy Sultanov ömrünün sonunadək – 1935-ci ilə kimi həyatını xalqının maariflənməsinə xidmətdə keçirmişdir.

Azərbaycan ədəbiyyatı, mətbuat və teatrı, habelə ictimai fikir tarixində mühüm yer tutan Eynəli bəy Sultanovun xidmətlərini nəzərə alaraq və Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Eynəli bəy Sultanovun 150 illik yubileyi Naxçıvan Muxtar Respublikasında geniş qeyd edilsin.

2. "Eynəli bəy Sultanovun 150 illik yubileyinin keçirilməsi ilə əlaqədar Tədbirlər Planı" təsdiq edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 15 fevral 2016-cı il*

## Şərur rayonunun Oğlanqala kəndində müasir infrastruktur yaradılmışdır

Muxtar respublikanın qədim yaşayış məntəqələrindən biri də Şərur rayonunun Oğlanqala kəndidir. Əcdadlarımızın yaratdığı qədim mədəniyyətin izlərini və zəngin tarixi özündə yaşadan Oğlanqala kəndi bu gün həm də müasir görkəmi ilə diqqəti cəlb edir. Ölkəmizdə həyata keçirilən uğurlu sosial-iqtisadi islahatlar bu kəndi də əhatə etmiş, aparılan geniş quruculuq işləri və tikilən müasir sosial obyektlər kəndin minillik tarixində yeni inkişaf dövrünün əsasını qoymuş, Oğlanqala muxtar respublikanın şəhərləşən kəndlərinin sırasına daxil olmuşdur.

## Oğlanqalada yeni məktəb binası istifadəyə verilmişdir



Fevralın 15-də Oğlanqala kənd tam orta məktəbinin yeni binasının açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.

Şərur Rayon İcra Hakimiyyətinin başçısı İbrahim Məmmədov çıxış edərək demişdir ki, muxtar respublikada həyata keçirilən tikinti-quruculuq və abadlıq işləri Şərur rayonunu da əhatə etmişdir. Ötən il Şərur şəhərində Aviakassa binası, Cəlilkənd, Püsyan, Kürçülü, Axaməd, Kürkənd və Yuxarı Yaycı kəndlərində yeni sosial obyektlər, Yengicə kəndində sosial qayğıya ehtiyacı olan sakin üçün fərdi ev tikilərək istifadəyə verilmiş, 21,2 kilometr kənd yollarına asfalt örtük salınaraq yenidən qurulmuşdur. Bu dövrdə rayon ərazisində 5 yeni artezian quyusu qazılmış, 7 artezian quyusu isə bərpa edilmişdir. Bu gün Oğlanqala kəndində yeni məktəb binasının, kənd və xidmət mərkəzlərinin, həkim ambulatoriyasının istifadəyə verilməsi də muxtar respublikada kəndlərin inkişafına göstərilən qayğının ifadəsidir. İbrahim Məmmədov yaradılan şəraitə görə rayon əhalisi adından minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Oğlanqala kənd tam orta məktəbinin istifadəyə verilməsi münasibətilə müəllim və şagirdləri təbrik edərək demişdir: Məktəb işi hər bir ölkədə vacib sahə hesab olunur. Çünki ölkənin gələcəyi məktəblərdə hazırlanır. Ümummilli liderimiz Heydər Əliyevin ötən əsrin 70-ci illərindən başlayaraq məktəb işinə göstərdiyi diqqət və qayğı bu gün ölkə Prezidenti tərəfindən uğurla davam etdirilir. Bunun nəticəsidir ki, ölkəmizin hər yerində yeni məktəb binaları tikilir, müəllim əməyi qiymətləndirilir, onların əməkhaqlarının artırılması üçün diaqnostik qiymətləndirmə aparılır.

Ali Məclisin Sədri demişdir: Məktəbdə təhsil alan hər bir gənc gələcəkdə mütləq bir peşə sahibi olmalıdır. Bu səbəbdən də məktəblərdə müasir tədris şəraiti yaradılmalıdır. Oğlanqala kənd tam orta məktəbində yaradılan şərait imkan verəcəkdir ki, burada təhsil alan gənclər gələcəkdə ölkəmizdə və xaricdə istənilən ali məktəbdə təhsillərini davam etdirsin, eyni zamanda bir peşə sahibi olsunlar. Bütün bunlar kollektivin üzərinə mühüm vəzifələr qoyur. Əgər məktəbdə müasir tədris şəraiti yaradılıbsa, yeni innovasiyaların tətbiqi və onlardan istifadə də mütləq qaydada həyata keçirilməli, gənclər müasir dövrün tələblərinə uyğun hazırlanmalıdır. Müəllimlər bilməlidirlər ki, onlar ölkənin gələcəyini hazırlayırlar. Şagirdlər isə bilməlidirlər ki, onlar ölkəmizin gələcəyidirlər. Ona görə də müəllimlər gənclərə təhsil verməklə yanaşı, həm də onları müstəqil həyata hazırlamalıdırlar. Gənclər isə yaxşı oxumalı, yaradılan şəraitdən istifadə edərək ölkəmiz üçün yararlı vətəndaş kimi yetişməlidirlər.

Ötən tədris ilində qazanılan nailiyyətlərə görə Oğlanqala kənd tam orta məktəbinin kollektivinə təşəkkür edən Ali Məclisin Sədri bu nailiyyətlərin daha da artırılacağına, məktəbin muxtar respublikanın qabaqcıl məktəbləri, eləcə də ölkəmizdə keçirilən "Ən yaxşı ümumi təhsil məktəbi" müsabiqəsinin qalibləri sırasında olacağına əminliyini bildirmiş, kollektivə tədrisdə uğurlar arzulamışdır.



*Ardı 2-ci səhifədə*





Sonra Ali Məclisin Sədri məktəbdə yaradılan şəraitlə tanış olmuşdur.

Bildirilmişdir ki, 576 şagird yerlik 3 mərtəbəli məktəb binasında 4-ü elektron lövhəli olmaqla, 32 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə, 2 kompüter otağı, müəllimlər otağı, 2 şahmat otağı, kitabxana, bufet, idman zalı və açıq idman qurğuları yaradılmışdır. Məktəbin kitabxana fondunda 7357 kitab vardır.

Ali Məclisin Sədrinə məlumat verilmişdir ki, məktəbin yeni binası və müasir tədris bazası dərslərin səmərəli keçirilməsinə imkan verir. 2015-2016-cı tədris ilində Oğlanqala kənd tam orta məktəbində birinci sinfə 43 şagird qəbul olunmuşdur. Məktəbdə internetə çıxışı olan 38 kompüter quraşdırılmışdır. Həmçinin elektron lövhələrdə internetə çıxış imkanının yaradılması distant təhsilin tətbiqinə imkan verir. Oğlanqala kənd tam orta məktəbinin şagirdləri muxtar respublikanın 206 təhsil müəssisəsi ilə eyni vaxtda Naxçıvan Dövlət Tarix Muzeyində keçirilən distant dərsi izləmişlər.

Ali Məclisin Sədri Oğlanqala kəndinin tarixi ilə bağlı məlumatların məktəbin tədris proqramına daxil edilməsi və şagirdlərə öyrədilməsi barədə tapşırıqlar vermişdir.

Gənclərin fiziki sağlamlığı və vətənpərvər böyüdülməsi vacib amildir. Bu səbəbdən də məktəbdə çağırışaqədərki hərbi hazırlıq fənninin və idman dərslərinin tədrisinə xüsusi diqqət yetirilir. Müasir hərbi kabinə və geniş idman zalı şagirdlərin istifadəsinə verilmişdir.

Məktəbin müəllimləri ilə görüşən Ali Məclisin Sədri demişdir ki, Oğlanqala kənd tam orta məktəbi bu gün ən inkişaf etmiş ölkələrdəki məktəblər səviyyəsində qurulub. Şagirdlərin təlim-tərbiyəsi, yaxşı oxuması, həyata hazırlanması müəllim əməyinin bəhrəsidir. Şagird yaxşı hazırlanıbsa, onun müəlliminin əməyinin bəhrəsi də uğurludur. Buna görə də məktəblərimizdə müasir şəraitin yaradılması ilə yanaşı, məsuliyyət də dəyişilməlidir. Ölkənin gələcəyi və cəmiyyətin sağlam inkişafı məktəbdə gənclərin düzgün hazırlanmasından başlayır. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki: ***"Məktəb təhsil verməklə yanaşı, eyni zamanda gəncləri müstəqil həyata hazırlayan tərbiyə ocağıdır".***

Müəllim Gülnar Seyidova kollektiv adından minnətdarlıq edərək demişdir ki, bu gün Oğlanqala kəndində hər cür avadanlıqlarla təchiz olunmuş yeni məktəb binasının istifadəyə verilməsi müəllim və şagirdlərə, ümumiyyətlə təhsilin inkişafına göstərilən diqqət və qayğının bariz nümunəsidir. Bütün bunların müqabilində işimizə daha məsuliyyətlə yanaşacaq, qarşımıza qoyulan vəzifələri layiqincə yerinə yetirəcək, məktəbdə savadlı və vətənpərvər gənclər yetişdirəcəyik.

## Dövlət qurumları üçün müasir şərait yaradılmışdır






Fevralın 15-də Oğlanqalada Kənd Mərkəzi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış tədbirində iştirak etmişdir.

Ali Məclisin Sədri tədbirdə çıxış edərək demişdir: Oğlanqala kəndi müasir yaşayış məntəqəsinə çevrilib. Kənddə geniş quruculuq işləri aparılıb. Bütün bunlar insanların rahat yaşamasına imkan verəcəkdir. Eyni zamanda həyata keçirilən tədbirlər kəndlə şəhər arasındakı fərqin aradan qaldırılmasına xidmət edir.

Ali Məclisin Sədri demişdir: Oğlanqala kəndi qədim yaşayış məntəqəsidir. Aparılan kompleks quruculuq işlərindən sonra Oğlanqala kəndi həm də müasir yaşayış məntəqəsinə çevrilmişdir. Kənddə istifadəyə verilən yol, müasir məktəb binası, kənd mərkəzi, həkim ambulatoriyası ölkəmizin inkişafının, eyni zamanda bir kəndin timsalında dövlətimizin vətəndaşlara göstərdiyi qayğının nümunəsidir. Bütün bunlar Azərbaycan dövlətinin bugünkü simasıdır. Hər bir kənd, hər bir rayon öz inkişafı ilə ölkəmizin inkişafına pay verir. Kəndlərin, rayonların, şəhərlərin abadlaşması, müasirliyə qovuşması, ümumilikdə, Azərbaycanın inkişafına və daha da möhkəmlənməsinə xidmət edir.

Qeyd olunmuşdur ki, Oğlanqala kəndinin məhsuldar torpaqları və zəhmətkeş insanları vardır. Bu da imkan verir ki, qurulanlardan və yaradılan şəraitdən səmərəli istifadə olunsun, kənd daha da inkişaf etsin, nailiyyətləri artsın. Nailiyyətlərin artması isə, ümumilikdə, ölkəmizin nailiyyətlərinin artması deməkdir. İnsanlar qurulanlara, yaradılan şəraitə ölkəmizin inkişafı yolunda göstərdikləri xidmətlərlə cavab verməlidirlər. Hər kəs çalışdığı sahədə öz üzərinə düşən vəzifəni məsuliyyətlə və keyfiyyətlə yerinə yetirməlidir.

Ali Məclisin Sədri demişdir: Bu gün Oğlanqala kəndi qədimliyi və müasirliyi təcəssüm etdirir. Kəndin qürurverici tarixi vardır. Qədim yaşayış məntəqəsi olan Oğlanqala və Qız qalası haqqında Fransa və Amerika mətbuatında yazılar dərc olunur.



Kəndə gələn və bu ərazidə tədqiqat işləri aparan xarici mütəxəssislər qədimliklə müasirliyin vəhdət təşkil etdiyini görməlidirlər. Ona görə də tikilənlər, qurulanlar, yaradılan abadlıq işləri qorunub saxlanılmalı, kənd bundan sonra da inkişaf etdirilməlidir.

Sakin Hüseyn Orucov minnətdarlıq edərək demişdir: Oğlanqala kəndində şəhər rahatlığı yaradılmışdır. Kənddə bütün növ kommunal xidmətlərlə təmin olunmuşuq. Bu günlərdə kənddə istifadəyə verilən artezian quyusu sakinlərin içməli suya olan tələbatını ödəyir. Bu gün istifadəyə verilən məktəb, kənd və xidmət mərkəzləri, müasir xəstəxanadan fərqlənməyən həkim ambulatoriyası kənd sakinlərinə göstərilən diqqət və qayğının daha bir ifadəsidir. Bir sözlə, kənd sakinlərinin bütün qayğıları öz həllini tapıb. Dövlətimizin diqqətini daim öz üzərində hiss edən sakinlər vaxtını təsərrüfatla məşğul olmağa sərf edir. Fərdi təsərrüfatları inkişaf etdirmək üçün götürülən kreditlərin manatın köhnə məzənnəsi ilə qaytarılması sakinlər tərəfindən razılıqla qarşılanır. Bütün bunlar isə təsərrüfat sahələrinin daha da genişləndirilməsinə, bol məhsul istehsalına rəvac verir. Bundan sonra da yaradılan şəraitdən səmərəli istifadə edəcək, məhsul istehsalını artırmaqla ölkəmizin inkişafına öz töhfəmizi verəcəyik.

Ali Məclisin Sədri açılışı bildirən lenti kəsmiş, mərkəzdə yaradılan şəraitlə tanış olmuşdur.

Binanın birinci mərtəbəsində rabitə evi, kitabxana, polis sahə və baytarlıq məntəqələri vardır. Baytarlıq məntəqəsində lazımi şərait yaradılmış, soyuducu qoyulmuşdur. Məlumat verilmişdir ki, hazırda Oğlanqala kəndində 3 min başdan artıq iribuynuzlu və xırdabuynuzlu heyvan, 500-dən artıq arı ailəsi saxlanılır. Fərdi təsərrüfatlar vaxtlı-vaxtında dezinfeksiya olunur, süni mayalanma tədbirlərinə geniş yer verilir.

Kitabxana fondunda oxucuların istifadəsinə 12 mindən artıq ədəbiyyat verilmişdir. Rabitə evində 384 nömrəlik ATS quraşdırılmış, genişzolaqlı və sürətli internetdən istifadə imkanları yaradılmışdır. Hazırda kənddə 320 telefon və 64 internet istifadəçisi vardır. Rabitə evində yeni poçt bölməsi yaradılmış, burada kompüter və POS-terminal qoyulmuş, kommunal ödənişlərin poçt vasitəsilə qəbuluna başlanılmışdır.

Binanın ikinci mərtəbəsində inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, mədəniyyət evi, Yeni Azərbaycan Partiyası Oğlanqala kənd ərazi ilk təşkilatı və 74 yerlik iclas zalı vardır. Yeni Azərbaycan Partiyası Oğlanqala kənd ərazi ilk təşkilatının 285 üzvü vardır ki, onlardan da 122-si gənclər, 59-u isə qadınlardır.

İnzibati ərazi dairəsi üzrə nümayəndə Arzuman Mehdiyev məlumat vermişdir ki, kəndin əlverişli yerdə yerləşməsi burada heyvandarlığın və əkinçiliyin inkişafına geniş imkanlar açır. Suvarma suyu ilə təminat, torpaq mülkiyyətçilərinə və fermerlərə dövlət dəstəyinin artırılması, subsidiyaların verilməsi və texniki təminat imkan verir ki, sahələrdən bol məhsul götürülsün.

Ali Məclisin Sədri yaradılan şəraitdən səmərəli istifadə olunması, kənddə heyvandarlığın və əkinçiliyin inkişaf etdirilməsi, tikilənlərin, qurulanların qorunub saxlanılması və nizam-intizama əməl edilməsi barədə tapşırıqlar vermişdir.

*Ardı 3-cü səhifədə*

## Kənddə tibbi xidmətin səviyyəsi yüksəlmişdir





Muxtar respublikada həyata keçirilən səhiyyə islahatlarından Oğlanqala kəndinə də pay düşmüşdür.

Fevralın 15-də Oğlanqala kənd həkim ambulatoriyasının açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmiş, ambulatoriyada səhiyyə xidmətinin təşkili ilə maraqlanmışdır.

Məlumat verilmişdir ki, ikimərtəbəli həkim ambulatoriyası xəstəxana tiplidir. Binada baş həkim, qeydiyyat, tibb bacısı, doğuş, peyvənd, mama, manipulyasiya, sanitar otaqları, palata, stomatoloji kabinə, laboratoriya və aptek olmaqla, 12 otaq vardır. Otaqların hər biri təyinatına uyğun müasir tibbi avadanlıqlarla təchiz olunmuşdur. Həkim və tibb işçiləri yaradılan şəraitdən və öhdəliklərində olan müasir tibb avadanlıqlarından səmərəli istifadə edərək əhalinin sağlamlığı qayğısına qalırlar. Kənddə profilaktik tədbirlərin təşkilinə, xüsusilə hamilə qadınların və uşaqların vaxtlı-vaxtında müayinəsinə ciddi diqqət yetirilir.

Ali Məclisin Sədri kənddə səhiyyə xidmətinin günün tələblərinə uyğun təşkilinin vacibliyini qeyd etmişdir.

## Xidmət mərkəzi sakinlərin gündəlik tələbatını ödəyəcəkdir



Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Oğlanqala kəndində xidmət mərkəzinin də açılışını etmişdir.

Məlumat verilmişdir ki, mərkəzdə 2 yerlik bərbərxana, qadın gözəllik salonu, ət satışı yeri, ərzaq və sənaye malları mağazaları fəaliyyət göstərir. Xidmət mərkəzində 6 nəfər işlə təmin olunmuşdur. Kənd sakinləri gündəlik ərzaq və təsərrüfat mallarını bir ünvandan əldə etməklə yanaşı, həm də istehsal etdikləri kənd təsərrüfatı məhsullarını burada satışa çıxaracaqlar.

* * *

Kompleks quruculuq işləri zamanı kənddaxili avtomobil yollarına 1300 metr məsafədə asfalt örtük, 4200 metr məsafədə çınqıl qatı verilmiş, yolboyu 11 su keçidi və 745 metr beton kanal tikilmişdir. Müasir rabitə xidmətinin təşkili məqsədilə 2400 metr məsafədə fiber-optik xətt, həmçinin 4 kilometr yeni elektrik xətti və 1350 metr uzunluğunda qaz xətti çəkilmişdir.



## Şərur rayonunun Xanlıqlar kəndindəki "İmamzadə" bərpa olunmuşdur





Muxtar respublikada milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması istiqamətində ardıcıl tədbirlər görülür, dini-tarixi abidələrimiz bərpa olunur. Şərur rayonunun Xanlıqlar kəndindəki orta əsr Azərbaycan memarlığının qiymətli nümunələrindən olan "İmamzadə"nin bərpası da bu sahədə görülən işlərin davamıdır.

Fevralın 15-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Xanlıqlar kəndinə gəlmiş, "İmamzadə"də aparılan bərpa işləri ilə tanış olmuşdur.

Ali Məclisin Sədri çıxış edərək demişdir: Bu gün həm tarixi abidə, həm də ziyarətgah bərpa olunaraq sakinlərin istifadəsinə verilir. XVI əsrdə İmam ailələrinə aid qəbirlər üzərində tikilmiş türbələrdən biri də "Parçı İmamzadəsi" deyilən bu İmamzadədir. İmamzadə yeddinci İmam Musa Kazımın oğlu Şahzadə İbrahimin məzarı üstündə tikilmiş, uzun illər ziyarətgah və inanc yeri olmuşdur.



Ali Məclisin Sədri demişdir: Ziyarətgahların ərazisi abad və səliqəli olmalıdır. Ona görə də Xanlıqlar kəndindəki "İmamzadə" bərpa olunaraq ona ikinci həyat verildi, türbənin yerləşdiyi ərazi abadlaşdırıldı. Həyata keçirilən bu tədbirlər tarixi-mədəni irsimizə göstərilən qayğı olmaqla yanaşı, eyni zamanda türbədə məzarı olan Şahzadə İbrahimə, onun ailəsinə və dinimizə hörmətin daha bir ifadəsidir. Ziyarətgaha gələn insanlar da bu amili diqqətdə saxlamalı, təmizliyə riayət etməlidirlər.

Sonra "Qurani-Kərim"dən ayələr oxunmuşdur.

Məlumat verilmişdir ki, "İmamzadə" giriş, salon və otaqlardan ibarətdir. Aşağı hissəsi kvadrat şəklində inşa edilən binanın tavanı tağvari günbəzlə örtülmüşdür. Bərpa işləri zamanı "İmamzadə"nin tarixi görkəmi və qədim memarlıq elementləri qorunub saxlanılmışdır. Abidənin həyətində də geniş abadlıq işləri aparılmışdır.

Ali Məclisin Sədri "İmamzadə"nin tarixi abidə kimi əhəmiyyətini qeyd etmiş, abidə haqqında bələdçi mətninin hazırlanması, tanıdılması və təbliği barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

***Alman biznesi haqqında yazmaq o qədər də asan deyil, baxmayaraq ki, almanlar mahiyyət etibarilə sabit və məqsədə doğru inamla getməyi bacaran xalqlardandır. Onları nə yaponla, nə də çinli ilə müqayisə etmək mümkündür. Almanlar şərqlilərdən fərqli dəyərlərə köklənən xalqdır. Həddən ziyadə maşınlara, texnikaya və mexanizmlərə bağlıdırlar, qayda-qanun isə onlar üçün müqəddəsdir. Ona görə də almanları, yumordan nə qədər uzaq olsalar da, xarakterizə edən bir cümləlik məşhur Avropa lətifəsini xatırlamasan olmur: alman cənnətə düşsə mütləq mexanik, cəhənnəmdə isə polis vəzifəsini seçəcək. Alman mentaliteti əvvəl özünü, sonra başqalarını düşünməyə köklənsə də, digər mədəniyyətlərə qarşı həssas və diqqətcildir.***

*Kiçik və orta sahibkarlıqda müasir dünya təcrübəsi*

# İqtisadiyyatda alman möcüzəsi

Alman stereotipi təşkilatçıdır, qaydaları sevir, qanunlara əməl edir, idealda isə hərbi marşın ritmi ilə yaşayır. Bu, onların dəqiqlik və prinsipiallığından irəli gəlir. Almanlara biz “alman”, ruslar “nemets”, ingilislər “german”, fransızlar “allemande”, italyanlar “tedesco”, özləri isə “deutsche” deyirlər. Bunu almanların tarixi köklərinin digər xalqlara bağlılığı ilə izah edirlər. Çətin başa düşülən bir xalqdır, tarixdə baş verən müharibələrə görə onlardan ehtiyatlananlar bu gün də az deyil.

Rus yazıçısı Dostoyevski yazırdı ki, almana məxsusi alışmaq lazımdır. Alman yazıçısı Tomas Mann hesab edirdi ki, almanları dərk etmək, ümumiyyətlə, çətindir. Dahi Höte isə yazırdı ki, almanlar hər şeyi özləri və başqaları üçün çətinləşdirirlər. Lakin bütün bu deyilənlərə rəğmən almanlar səliqə-sahmana aşiqdirlər, həvəslə və çox işləməyi bacarırlar. Eyni zamanda alman bürokratiyasının tayı-bərabəri yoxdur. Dostum Almaniyada ölən anasını gətirmək üçün bir aydan artıq bürokratik qaydalara ilişib qaldı, dəfn günü mərhumun qırxı ilə üst-üstə düşdü.

Almanlar qanunlara səcdə etməyi bacarırlar. Onların zəif yeri müxtəlif mexanizmlərə sonsuz sevgidən ibarətdir. Bizim üçün at, arvad və silah nədirsə, alman üçün də avtomobil və mexanizmlər eyni şeydir.

Bu ölkədə iqtisadiyyatın ana sütununu kiçik və orta sahibkarlıq təşkil edir. Almanlar orta təbəqəyə mittelstand deyir və onu göz bəbəyi kimi qorumağa çalışırlar. Bütün işləyən almanların, təxminən, 70 faizə qədəri biznesin bu sahəsində çalışır. Belə göstəricilər nə ABŞ-da, nə də İngiltərədə var. ÜDM-in, təxminən, yarısı kiçik və orta sahibkarların payına düşür. Alman iqtisadiyyatının simasını sənaye nəhəngləri ilə bərabər, kiçik və orta müəssisələr də təmsil edir. AFR-də sağlam rəqabəti işlədən qayda-qanun təmin edir, yaradılan yeni müəssisələr dövlət büdcəsinə gəlir, insanlara isə iş yerləri verir.

Almaniyada kiçik və orta sahibkarlıqda böhran illərində statistik rəqəmlərdə azalma müşahidə olunsa da, bu ölkədə biznes inkişaf etməkdədir. 2012-ci ildə 346 min firma yaradılıb, bu, əvvəlki illə müqayisədə 14 faiz aşağıdır. 2013-cü ildə bu rəqəm bir neçə faiz də azalıb. Alman şirkətləri bütün çətinliklərə baxmayaraq, böhran illərində də uğurla işləyə bildi, bazarda bolluğu təmin etdi və inkişafdan qalmadılar.

Kiçik və orta müəssisələrə əməkdaşlarının sayı 9-dan 500 nəfərədək, dövriyyəsi 50 milyon avroyadək olan firmalar aid edilir. AFR-də onların ümumi sayı 3 milyondan artıqdır. İxracyönümlü 1300 kiçik və orta müəssisə dünya ixracatçıları arasında çempiondur. Belə şirkətlər dünya bazarlarındakı əlverişli mövqeyinə görə sabitliyin zəmanətçisi kimi çıxış edə bilirlər. Daxili bazarda sahibkarların mülkiyyət hüququnu alman qanunvericiliyi ciddi qoruyur; iş verənlərlə işə götürülənlərin münasibətlərinin səlis tənzimlənməsi hər iki tərəfin maraqlarını ədalətlə təmin edir. Kiçik və orta sahibkarlara dəstək prioritet kimi dövlətin iqtisadi siyasətinin əsasını təşkil edir. Bu ölkədə kiçik və orta sahibkarlara münasibət bütün digər Avropa dövlətləri üçün bir nümunədir.

Belə müəssisələrin maliyyələşdirilməsi Dövlət Kredit Bankı tərəfindən 200-dən artıq dəstək proqramı çərçivəsində həyata keçirilir. Yeni fəaliyyətə başlamaq istəyən sahibkar öz biznes planını yaşadığı yerdə kommersiya bankına təqdim edir, məsələ müsbət həll edildikdə kredit bankına güzəştli şərtlərlə kredit ayrılması üçün sorğu göndərilir. Kreditlərin müddəti 10 ilə qədərdir və bir qayda olaraq, birinci iki ildə sahibkar borc və faizləri ödəməkdən azaddır. Kreditlərin orta məbləği 200-300 min avro arasındadır. Lakin kreditin məbləği bir neçə min avrodan bir neçə milyonadək ola bilər. Dövlət güzəştli krediti sahibkara ala gözlərinə görə vermir, məqsəd odur ki, bu müəssisələr xeyirlə işləsin, vergiləri ödəsin, yeni iş yerləri yaratsın, işini genişləndirərək innovasiyalara və perspektivli sahələrə investisiya yatırsın. Ona görə də sahibkarların biznes planları bir-birindən asılı olmayan 4 səviyyədə yoxlamalardan keçir.

Dövlət güzəştli kreditləri verərkən bazarın nisbətən zəif və inkişafda olan təbəqəsinin maraqlarını nəzərə alır, qadın sahibkarlara, mühacirlərə, innovasion yeniliklər sahəsində fəaliyyət göstərən elmi-tədqiqat şirkətlərinə kreditlər ayrılarkən üstünlük verir. Məsələn, yeni iş quranlara illik 3 faizlə “start maliyyəsi” adı altında güzəştli kreditlər verilir. Perspektiv biznes planı təklif edən yeni müəssisə 100 min avro da yardım ala bilər. Həmçinin Bərpa Kredit Bankı tərəfindən istehsalın genişlənməsi üçün 300 min avroyadək kreditlər verilir.

İşsizliklə mübarizədə ən populyar addımlardan biri kiçik və orta müəssisə yaradarkən müflis olub iş yerini itirən sahibkarlara verilən təmənnasız dövlət yardımlarıdır. Onlara sonuncu maaşının 65 faizi həcmində əlavə sosial müavinət ödənilir. Almaniyada 10 ildən yuxarı tətbiq edilən bu dotasiyalar keçmiş işsizlərin kütləvi surətdə kiçik və orta müəssisələr yaratmasına səbəb oldu. Hər il kiçik və orta sahibkarlara 15 milyard avro ətrafında kredit ayrılır. Kommersiya riskinin yarısını dövlət öz boynuna götürür. İşə başlayan xanımlara kömək edən xüsusi agentlik fəaliyyət göstərir.

Müəssisələrin qeydiyyatdan keçmə qaydaları eynidir, yalnız ilkin qeydiyyat üçün fəaliyyət növündən asılı olaraq müraciət edilməsi təşkilatlar müxtəlifdir. Almaniyada 50 avroya 15 dəqiqə ərzində şirkət açmaq mümkündür. Bu günədək sənətkarların azadlığı haqqında qanun qüvvədədir, bu isə o deməkdir ki, istənilən növ sahibkarlıq fəaliyyətinə dövlət tərəfindən icazə verilir. Formal prosedurlar avtomatik həll edilir. Bəzi fəaliyyət növlərinə – restoran, diskoteka, açıq təbiətdə kafe açarkən müəyyən əlavə icazələr lazım gəlsə də, bunların heç biri sahibkar üçün əlavə problem yaratmır və tez həll olunur. Sadəcə, qaydalara əməl etdikdə heç bir çətinlik yaranmır. Almaniyada şirkətlər yoxlanılarkən müəyyən faktlar üzə çıxdıqda belə, müəssisənin fəaliyyətinə qadağa qoyulmur, hətta yoxlamaların varlığı belə hiss olunmur.

Əgər almana sual versəniz ki, dövlət məmurları yoxlamalar zamanı sahibkarı şantaj edə bilərmi, o sizi sadəcə başa düşməyəcək. Ona görə ki, sahibkarlar özləri bu yoxlamaların marağındadır və istehsal etdikləri məhsul və xidmətlərin standart və normalara nə dərəcədə uyğun gəldiyini bilmək istəyirlər. Bu, onlarda bazar rəqabətində əminlik yaradır. Dövlət məmurunu rüşvətlə yoldan çıxarmaq, ələ almaq həm mümkün deyil, həm də sərfəli. Onlar da öz işlərini yaxşı icra edir və yüksək maaş aldıqları üçün iş yerlərini itirmək istəmirlər.

Kiçik və orta müəssisə yaradan sahibkar əmək agentliyinə işçilərin sayı barədə məlumat verməlidir. Bu, işə götürülənlərin sosial və təqaüd sığortalarının qeydiyyata alınması üçün vacibdir. Sahibkar özü bütün ödəmələrin dörddəbirini əmək agentliyinə ödəyir, qalan məbləğ isə işçilər tərəfindən ödənilir. Avtomatik olaraq bütün işə götürənlər işçiləri bədbəxt hadisələrdən sığortalayır. Bununla da, sahibkar forsmajor hadisələrdə çıxılmaz vəziyyətə düşməkdən özünü xilas edir. Eyni zamanda bütün alman şirkətlərinin bağladığı məsuliyyət sığortası da mövcuddur. Artıq Berlində ingilis dilində də şirkətləri qeydiyyatdan keçirmək mümkündür. Almaniya bu minvalla xarici investorları cəlb etmək niyyətindədir.

Alman sahibkarlar işin qurulması üçün yer axtaranda da əziyyət çəkmirlər. AFR-də müqavilə azadlığı deyilən bir qayda mövcuddur. Heç bir çətinlik çəkmədən işin qurulması üçün yararlı yerin sahibi ilə icarə müqaviləsi bağlamaq mümkündür. Daşınmaz əmlakı axtarıb satın almaq da asandır, bir şərtlə ki, əmlakın alqı-satqı müqaviləsi notarial qaydada təsdiq olunsun.

Alman sahibkarlar həmişə vergi yükünün ağırlığından inildəyirlər. Vergilər ölkənin müxtəlif regionlarında fərqlidir. İstehsal prosesinə ayrılan bütün xərclər çıxıldıqdan sonra xalis gəlirdən vergilər tutulur. İstehsal prosesi ilə bağlı vergilər 15 faiz, ƏDV və ya dövriyyədən vergi fəaliyyət növündən asılı olaraq 7-19 faiz arasındadır, kapitala qoyulan vergi isə gəlirdən asılı olaraq proqressiv şkala ilə hesablanır. Sonda sahibkarın əlində gəlirinin yalnız 50 faizi qalır. Gəlirin digər yarısını dövlət qatlayıb cibinə qoyur. Ona görə ki, bu məbləğin əvəzində dövlət sahibkara azad şərait yaradır, dövlət bankı vasitəsilə güzəştli investisiyalar təklif edir. Əvəzində isə bütün başqa hallarda sahibkarın işinə qarışmır, kömək isə həmişə göstərilir.

AFR-in İqtisadiyyat Nazirliyinin yaratdığı saytda kiçik və orta biznesin təmsilçiləri peşəkar mütəxəssislərin məsləhətini ala, biznes planlarını qurmaq üçün proqram paketlərini saytdan pulsuz yükləyə bilərlər. Həmçinin dövlət kiçik biznesə birbaşa da subsidiyalar və aşağı faizli güzəştli kreditlər qismində dəstək verə bilir. Ancaq qaydalar belədir ki, kiçik biznes öz problemlərini sərbəst həll edir. Və o, yalnız fəaliyyət şəraitinə alışa və cəmiyyətin tələblərini ödəyə bilmədikdə və ya iqtisadi inkişafın çatışmayan elementlərindən fəaliyyəti çətinləşdikdə dövlət yuxarıdan işə qarışır. Məsələn, 2010-cu ildəki böhran zamanı sənətkarlara dəstək üçün alman hökuməti onların xidmətinə görə vergilərin bir qismini silən qanun qəbul etdi ki, istehlakçılar leqal sənətkarların xidmətlərindən istifadə etsinlər.

Əgər desək ki, Almaniyada kiçik sahibkarların heç bir problemi yoxdur, bu, əlbəttə ki, həqiqətə uyğun olmayacaq. Hətta alman ölçüləri ilə də çatışmazlıqlar mövcuddur. Rəqiblərin qiyməti öldürməsi, istehlakçıların da müxtəlif xidmətlərə görə qiymətləri aşağı salmağa cəhd etməsi müəyyən çətinliklər yaradır.

Kiçik sahibkarları narahat edən məsələlərdən biri də kadr problemləri ilə bağlıdır. Kiçik şirkətlərə gənclər, əvvəlki illərdə olduğu kimi, həvəslə gəlmirlər. Bütün dünyadakı bank sistemində bir neçə dəfə baş verən böhranlar AFR-dəki kiçik sahibkarlardan da yan ötmədi. Dünyanı bürüyən qlobal böhranın təsirini yumşaltmaq məqsədilə AFR-də yeni maliyyə strukturları yarandı, verilən mikrokreditlərin həcmi artırıldı. Bütün bu addımlar, ağır böhran illərinə baxmayaraq, ölkədə kiçik və orta sahibkarlara gəlirlə işləməyə imkan verdi.

Alman iqtisadiyyatının uğurunu təmin edən başlıca amil, bəlkə də, almanların özlərinə qarşı həddən ziyadə tələbkar olması, qazandıqları nailiyyətlərə soyuqqanlı yanaşması ilə bağlıdır. Onlar uğuru göylərə qaldırıb bayraq kimi başının üstündə aramsız yırğalamağı sevmirlər. Bir də irəli gedən ölkələrin hamısının, Şərqdə və Qərbdə yerləşməsindən asılı olmayaraq, bənzər əlamətləri var. Onlar keçmişlərini, tarixini analiz edir, perspektiv planlarını milli mentalitetin vərdiş və xüsusiyyətlərinə uyğun qururlar. Dünyaya və qabaqcıl təcrübəyə açıqdırlar. Öz xalqlarını, torpaqlarını, bayraq və dövlətlərini sevir, milli mədəniyyətləri, mental xüsusiyyətləri ilə fəxr edirlər.

**Bahadur İMANQULİYEV**
***“Azərbaycan” qəzeti,***
***14 fevral 2016-cı il***

## Boksçularımız respublika çempionatından medallarla qayıdıblar

Boks üzrə gənclərin Azərbaycan çempionatına yekun vurulub. Bu çempionatda Naxçıvan Muxtar Respublikası boks məktəbinin yetirmələri də öz güclərini sınayıblar. Yarışda ən uğurlu nəticəni 60 kiloqram çəki dərəcəsində Sərxan Əliyev qazanıb. O, ilk iki mərhələdə müvafiq olaraq Qadir Məmmədov və Füzuli Tağıyevi mübarizədən kənarlaşdırıb. 1/4 final mərhələsində dəri əlcək sahibimiz Aqil Qəmbərlidən üstün olub. Finala gedən yolda isə Sərxan Əliyev Ədalət Əmirovu üstələyib. Həlledici qarşılaşmada boksçumuz Elton Məmmədovu məğlub edərək respublika çempionu adını qazanıb. Digər idmançımız, 81 kiloqram çəki dərəcəsində mübarizə aparan Toğrul İsmayıllı isə yarımfinala kimi itkisiz irəliləyib. Lakin final görüşündən öncə məğlub olan dəri əlcək sahibimiz çempionatı bürünc medalla başa vurub.

Bu nəticə ilə Naxçıvan boks komandası ölkə çempionatını 1 qızıl, 1 bürünc medalla 3-cü pillədə başa vurub.

✍ **Ceyhun MƏMMƏDOV**

## Elan

*Sərnişinlərin nəzərinə!*

Fevral ayının 20-dən Naxçıvan-Batumi və əks istiqamətdə avtobus marşrutu fəaliyyətə başlayacaqdır. Avtobus Naxçıvan şəhərindən başlayaraq Türkiyə Respublikası ərazisindən keçməklə Batumi şəhərinə hərəkət edəcəkdir.

İlk marşrut 2016-cı il fevralın 20-də, saat $7^{30}$-da Naxçıvan Şəhər Avtovağzalından yola düşəcəkdir. Bir nəfər üçün biletin qiyməti 27 manatdır.

Bilet almaq üçün muxtar respublika ərazisindəki avtovağzallara müraciət etmək olar.

*Əlaqə telefonları: 545-93-89; 554-13-58; 546-20-28; 543-04-95; 547-09-97*

## Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin, İqtisadiyyat Nazirliyinin, Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə “Perspektivli və innovativ biznes ideyaları” mövzusunda müsabiqə elan edilir




*Müsabiqənin əhatə etdiyi sahələr*

1. İKT sahəsində biznes ideyalar.
2. Sənaye məhsullarının istehsalı sahəsində biznes ideyalar.
3. Turist-ekskursiya xidmətləri sahəsində biznes ideyalar.
4. Marketinq və konsaltinq xidmətləri sahəsində biznes ideyalar.

*Müsabiqənin şərtləri və keçirilmə qaydaları*

1. Müsabiqədə yalnız Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrində təhsil alan tələbələr, həmçinin bu sahəyə marağı olan gənclər iştirak edə bilərlər.
2. Müsabiqədə iştirak etmək istəyən tələbə və gənclər öz biznes ideyalarını biznes plan formasında 2016-cı il mart ayının 17-dək müsabiqə komissiyasına təqdim etməlidirlər.
3. Müsabiqəyə təqdim olunmuş biznes planlar perspektivliliyi, iqtisadi səmərəliliyi və həyata keçirilməsinin mümkünlüyü meyarları nəzərə alınmaqla qiymətləndiriləcəkdir.
4. Müsabiqəyə təqdim olunmuş biznes planlar münsiflər heyəti tərəfindən 29 mart 2016-cı il tarixədək qiymətləndiriləcək və müsabiqənin qalibləri müəyyən ediləcəkdir.

Müraciətlər şəxsiyyət vəsiqəsi və biznes planla birlikdə 3 mart 2016-cı il tarixdən 17 mart 2016-cı il tarixədək Naxçıvan Muxtar Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin Texniki tənzimləmə və standartlaşdırma şöbəsində qəbul olunacaqdır.

*Müsabiqənin nəticələri 30 mart 2016-cı il tarixdə, saat $11^{00}$-da elan ediləcəkdir.*

**ŞƏRQ qapısı**
**Baş redaktor:** TURAL SƏFƏROV

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

***Nömrəyə məsul:*** **Səbuhi Həsənov**
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
**Tiraj: 1000. Sifariş № 132**